



QƏRBİ AZƏRBAYCAN

# İrəvan xanlığı:

## Tarixi həqiqətlər və təhrif edilmiş iddialara cavab

**İrəvan xanlığı Azərbaycan tarixinin ayrılmaz hissəsi kimi min illik mədəni irsi, dövlətçilik ənənələrini təmsil edir. Bu ərazi əsrlər boyu türk-müsəlman mədəniyyətinin inkişaf etdiyi, idarəçilik və memarlıq nümunələrinin formalaşdığı mərkəz olmuşdur. Lakin son zamanlar bəzi erməni mənşəli tarixçilər, xüsusilə də Corc Burnutyan kimi "alim"lər bu tarixi gerçəklikləri siyasi maraqları və ideoloji baxışları ilə təhrif etməyə çalışırlar. C.Burnutyanın "İrəvan xanlığı" kitabının ingilis dilində olan xülasəsinə yazdığı rəydə də Azərbaycan tarixini təhrif edən qeyri-dəqiq iddialar mövcuddur. Bu mövzuya dair elmi əsaslar təqdim edildikdə bəzi tarixçilər Burnutyanın artıq dünyasını dəyişdiyini əsas gətirərək bu məsələyə toxunmaqdan imtina edirlər. Halbuki, tarixi həqiqətlərin müzakirəsi və təhriflərə qarşı cavab vermək yalnız konkret şəxslə deyil, obyektiv prinsiplərlə bağlı məsələdir. Azərbaycanlı alimlərin və tarixçilərin cavabı 2023-cü ildə Qazaxıstanda nəşr olunan "Endless Light in Science" jurnalının "Historical Sciences and Archaeology" adlı 94-cü buraxılışında dərc olunub.**




İrəvan xanlığı 1747-ci ildən 1828-ci ilə qədər mövcud olmuş Azərbaycan dövlətçilik ənənələrinin təzahürü kimi tarixin səhifələrində yer almışdır. Xanlıqda Azərbaycan tayfalarına məxsus sülalələr, o cümlədən Ustaclı və Qacar kimi nəsillərin nümayəndələri olmuşdur. XIX əsrin əvvəlinə qədər aparılan araşdırmalar və arxiv sənədləri göstərir ki, İrəvan xanlığının əhalisi əsasən Azərbaycan türklərindən ibarət idi. Osmanlı, İran və Rusiya mənbələrindəki sənədlər bölgənin Azərbaycanın tarixi ərazisi olduğunu təsdiqləyir. İrəvan şəhərinin memarlıq və dini obyektləri, məscidlər, karvansaralar və digər mədəniyyət nümunələri bölgənin etnik və dini tərkibini əks etdirir. Bu tarixi faktlar İrəvan xanlığının Azərbaycan mədəniyyəti və dövlətçiliyinin canlı nümunəsi olduğunu açıq şəkildə ortaya qoyur.

Amerika-İran mənşəli erməni tarixçisi Corc Burnutyan iddia edirdi ki, İrəvan xanlığının əhalisinin çox hissəsi ermənilərdən ibarət olmuşdur. Halbuki bu iddianın tam əksi tarixi mənbələrlə sübuta yetirilmişdir. Məsələn, Rusiya ordusunun generalı İvan Paskeviçin 1828-ci ildə verdiyi rəsmi hesabatda İrəvan xanlığının əhalisinin 75 faizinin müsəlmanlardan ibarət olduğu açıq şəkildə qeyd edilir. Həmin müsəlmanlar isə əsasən Azərbaycan türkləri idi. Bundan əlavə, tanınmış rus tədqiqatçısı N.Şavrov 1911-ci ildə yazırdı ki, Cənubi Qafqazda yaşayan 1,3 milyon erməndən 1 milyondan çoxu bu əraziyə sonradan köçürülüb. Burnutyan öz araşdırmalarında bu kimi faktları görməzdən gəlir və ermənilərin guya bölgənin qədim sakinləri olduğunu iddia edirdi.

1828-ci ildə Rusiya imperiyası erməniləri yenidən Cənubi Qafqaza yerləşdirmək siyasəti yürütmüşdür. Hətta erməni əsilli rus zabiti Lazar Lazaryan ermənilərə müraciət edərək "orada sizin üçün yeni vətən yaradılacaq" ifadəsini işlətmişdi. Ona görə də erməni tarixçisinin irəli sürdüyü tezislər elmi əsaslardan və tarixi faktlardan uzaqdır. Onun iddialarına qarşı aşağıdakı arqumentlər irəli sürülür: Burnutyan İrəvan xanlığının müsəlman əhalisinin azərbaycanlı olmadığını və burada müxtəlif etnik qrupların bir arada yaşadığını iddia etsə də, tarixi mənbələr və arxiv sənədləri ərazidə əsasən Azərbaycan türklərinin üstünlük təşkil etdiyini göstərir. Burnutyanın "ermənilər burada qədimdən məskunlaşıb" tezisi tarixi faktlarla ziddiyyət təşkil edir. Əslində ermənilərin bölgəyə kütləvi köçürülməsi 1828-ci ildən sonra baş vermişdir və bu, çar Rusiyasının məkrli demoqrafik siyasətinin bir hissəsi olmuşdur. Burnutyanın irəli sürdüyü iddialardan biri də "Şərqi Ermənistan" anlayışıdır. O, bu bölgənin qədimdən ermənilərə aid olduğunu bildirir. Lakin tarixi faktlar bunun əksini sübut edir. Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər və Əfşarlar kimi türk dövlətləri yüz illər boyu bu torpaqlara hakim olmuşlar. Bununla yanaşı, Rusiya dövlət arxivlərində saxlanılan 1796-cı ilə aid sənədlərdə bu torpaqlar "Azərbaycan əraziləri" adlandırılır və burada "Azərbaycan xanları", "Azərbaycan qoşunları" ifadələri işlədilir. Əgər bu ərazi ermənilərə aid olsaydı, həmin dövrdə Rusiya mənbələri bunu niyə qeyd etmirdi? Cavab sadədir: çünki "Şərqi Ermənistan" adlı coğrafi bölgə heç vaxt mövcud olmayıb və bu termin yalnız erməni tarixçilərinin siyasi məqsədlər üçün uydurduqları anlayışdır. Qala və şəhər memarlığı baxımından da həmin dövrdə İrəvan xanlığında əsasən məscidlərin mövcudluğu, sonradan rus işğalı zamanı bəzi məscidlərin pravoslav kilsəsinə çevrilməsi kimi hallar müşahidə olunub. Həqiqətən də həmin ərazidə erməni kilsəsinin uzun müddət mövcudluğu ilə bağlı iddiaların elmi əsası yoxdur. Bu arqumentlər Burnutyanın iddialarının qərəzli və siyasi məqsədlərlə irəli sürüldüyünü ortaya qoyur.

Son illər bəzi erməni tarixçiləri və alimləri faktları öz siyasi və ideoloji mövqelərinə uyğun dəyişdirmişlər. Bu vəziyyət aşağıdakı aspektlərlə təhlil olunmalıdır: Bəzi erməni tarixçilər torpaq iddialarını gücləndirmək üçün tarixi sənədləri və arxiv materiallarını öz maraqlarına uyğun şərh edir və təqdim edirlər. Tarixi araşdırmalarda obyektivlik və çoxsaylı mənbələrin müqayisəli təhlili əsas prinsip olmalıdır. Lakin bəzi erməni alimləri yalnız öz maraqlarını dəstəkləyən məlumatları ön plana çıxararaq digər müvafiq mənbələri rədd edirlər. Erməni tarixçilərinin iddiaları, İrəvan xanlığının əsaslı faktlarının yanlış şərhi ilə nəticələnir və regionda mövcud olan tarixi-mədəni irs və demoqrafik dəyişikliklər təhrif edilir.

1828-ci il Türkmənçay müqaviləsindən sonra ermənilərin kütləvi şəkildə Cənubi Qafqaza köçürülmələri regionun demoqrafik strukturunu dəyişdirdi. Burnutyan iddia edir ki, 1828-ci ildə Türkmənçay müqaviləsindən sonra ermənilər tarixi torpaqlarına geri qayıtmışdılar. Əslində isə bu köçürülmə Rusiya tərəfindən Cənubi Qafqazda etnik tərkibi dəyişdirmək məqsədilə həyata keçirilmişdi. Maraqlıdır ki, Türkmənçay müqaviləsinin 3-cü maddəsində "Şərqi Ermənistan" anlayışı yer almır. Həmin müqavilədə yalnız İrəvan və Naxçıvan xanlıqlarının Rusiya imperiyasına birləşdirildiyi bildirilir. Erməni tarixçiləri isə bu faktı saxtalaşdıraraq sanki qədim erməni torpaqlarının Rusiyaya birləşdirildiyi kimi təqdim edirlər. Rus generalı Paskeviç və tarixçi N.Şavrovun yazdıqlarına görə, ermənilərin köçürülməsi dövlət siyasətinin tərkib hissəsi kimi planlı şəkildə həyata keçirilmişdir. 1828-1830-cu illərdə yalnız İrəvan və Naxçıvan ərazilərinə 45000-dən çox ermənin köçürülməsi ilə bölgənin demoqrafik tərkibində kəskin dəyişikliklər baş verib. Bu proses Azərbaycan türklərinin tarixən doğma torpaqlarından didərgin salınmasına səbəb olub. Bu faktlar ermənilərin bölgəyə "repatriasiyası" kimi təqdim olunan prosesin əslində siyasi və demoqrafik məqsədlərlə reallaşdırıldığını sübut edir.

Ermənilər XIX əsrdə Cənubi Qafqaza yerləşdirilmişlər. Bu fakt Rusiya imperiyasının 1828-ci il Türkmənçay müqaviləsindən sonra erməniləri bölgəyə köçürmək siyasəti ilə də təsdiq olunur. Həmçinin tarixi faktlar İrəvan qalasında erməni kilsəsinin mövcud olduğu iddiasını təkzib edir. Rus ordusunun 1827-ci ildə çəkdiyi rəsmi xəritədə belə bir kilsənin olmadığı açıq şəkildə görünür. Əksinə, İrəvan qalasında mövcud olan Rəcəb Paşa məscidi çar Rusiyasının işğalından sonra pravoslav kilsəsinə çevrilmişdir. Bu mənbələrlə təsdiq olunan tarixi faktdır. Erməni tarixçisinin İrəvan xanlığını ermənilərin tarixi torpağı kimi təqdim etməsi əsassızdır. Xanlığın idarəetməsi tamamilə Azərbaycan türklərinə məxsus olmuş və əhalinin böyük əksəriyyətini azərbaycanlılar təşkil etmişdir.

Rus və Avropa mənbələri İrəvan xanlığının tarixi reallıqlarını elmi dəlillərlə ortaya qoyur. Rusiya tarixçisi Şopen və digər alimlər İrəvan xanlığında 1828-ci ilə qədər ermənilərin azlıq təşkil etdiyini və onların bölgəyə sonradan köçürülməsinin şahidi olduqlarını bildirmişlər.

Avropa səyyahları və ticarət nümayəndələrinin qeydləri, şəhərin mədəni və dini həyatının əsasən türk-müsəlman ənənələrinə əsaslandığını memarlıq və dini obyektlərin bu mədəniyyətin əksini daşıdığını göstərir.

Osmanlı, İran və Rusiya arxivlərində mövcud olan sənədlər İrəvan xanlığının Azərbaycana aid olduğunu və bu ərazidə türk-müsəlman mədəniyyətinin üstünlük təşkil etdiyini təsdiqləyir. Müasir tədqiqatlar İrəvan xanlığının Azərbaycan tarixinin, mədəniyyətinin və dövlətçiliyinin canlı nümunəsi olduğunu ortaya qoyur. Həm Burnutyanın, həm də bəzi erməni tarixçilərinin iddiaları siyasi və ideoloji məqsədlərlə tarixi faktları təhrif edir. Bu cür yanaşmalar həm elmi cəhətdən problemli, həm də regionun demoqrafik və mədəni irsinin yanlış şərh olunmasına gətirib çıxarır. Tarixin obyektiv şəkildə araşdırılması üçün çoxsaylı mənbələrə əsaslanan, balanslı və qərəzsiz yanaşma vacibdir. Azərbaycan alimlərinin araşdırmaları mövcud tarixi faktların sübutu olaraq ölkəmizin mədəni irsinin və dövlətçiliyinin müdafiəsini təmin edir.

Azərbaycanlı alimlər akademik Fikrət Əliyev, professor Güntəkin Nəcəfli, dosent Yeganə Məmmədova, tarix elmlər doktoru, akademik Yaqub Mahmudov tarixi sənədlərin və arxiv materiallarının çoxşaxəli təhlili əsasında İrəvan xanlığının Azərbaycan türklərinin və dövlətçiliyinin davamı olduğunu elmi şəkildə təsdiq edirlər. Onların araşdırmaları erməni tarixçilərinin "iddialarının" elmi əsaslardan uzaq olduğunu göstərir.

"Endless Light in Science" jurnalında cavabların dərc edilməsi elmi ictimaiyyətə doğru və obyektiv məlumatların çatdırılması baxımından mühüm addımdır. Jurnalın nüfuzlu və beynəlxalq auditoriyası cavabları geniş şəkildə təhlil edərək həqiqətlərin təbliğinə və yanlış məlumatların qarşısının alınmasına kömək edəcək. Tarixi faktların təhrif olunması bu günə qədər çoxlu mübahisələrə səbəb olmuş və millətlər arasında yanlış anlamalar və gərginliklər yaratmışdır.

Elmi prinsiplərə əsaslanmayan hər hansı bir yanaşma təkcə tarixi təhrif etmir, həm də cəmiyyətlər arasında qarşıdurma və səhv anlaşılmalara səbəb olur. Bu səbəbdən, tarixi məsələlərə dair müzakirələrə hər zaman açıq olmaq, obyektivlik prinsiplərinə əsaslanaraq tarixi həqiqətləri qorumaq vacibdir.

Tarixi həqiqətlərin qorunması və dəqiq elmi metodologiyanın tətbiqi keçmişin doğru anlaşılması, həm də gələcək nəsillərə etibarlı mədəni irs təqdim edilməsi baxımından mühümdür. Bu məqsədlə, elmi müzakirələr və beynəlxalq tədqiqat əməkdaşlığı qərəzli tarix təhriflərinin qarşısını almağa xidmət etməlidir. Həm tarixi sənədlər, həm də beynəlxalq arxiv materialları İrəvan xanlığının Azərbaycan mədəniyyətinin və dövlətçiliyinin davamçısı olduğunu təsdiqləyir.

**Yusif ŞƏRİFZADƏ,**
**"Respublika".**